

# Dövlət müstəqilliyimizin bərpası milli kimliyimizin rəsmi təsdiqidir

Xalqımızın tarixindəki həlledici və unudulmaz günlərdən biri də Müstəqilliyin Bərpası Günüdür. Düz 31 il öncə – 1991-ci ilin 18 oktyabrında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbulu ilə bir daha suverenliyimizi bəyan etmişik. Bununla da biz XX əsrdə ikinci dəfə öz dövlətçiliyimizin varlığını gur səslə, qəti inamla dünyaya bildirmişik.

Bax ⇨ 4

## 18 Oktyabr Müstəqilliyin Bərpası Günüdür

# Dövlət müstəqilliyimizin bərpası milli kimliyimizin rəsmi təsdiqidir



(əvvəli 1-ci səhifədə)

Xatırladaq ki, ötən il oktyabrın 1-dək mayın 28-ni Respublika Günü, oktyabrın 18-ni isə Müstəqillik Günü kimi qeyd edirdik. Bir il öncə dövlət başçımızın imzaladığı qanunla 28 May Müstəqillik Günü, 18 oktyabr isə Müstəqilliyin Bərpası Günü kimi təsdiqləndi. Beləliklə də tarixə dəqiq istinad sayəsində daha konseptual və səhih yanaşma sərgiləndi.

Manna, Midiya və Atropatenadan üzü bəri formalaşmış dövlətçilik ənənələrimizlə öyünə bilərik. Sonrakı dövrlərdə Xürrəmilər, Ağqoyunlu, Qaraqoyunlu, Şirvanşahlar, Səfəvilər naqlardan keçməli oldu. Qeyd etdiyimiz kimi, ərazilərimiz nankor qonşular tərəfindən işğal edildi, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkün taleyi yaşamalı oldu. Xalqımızın ulu öndəri Heydər Əliyev, onun layiqli davamçısı, Prezident İlham Əliyev illərlə beynəlxalq tribunalardan Azərbaycanın haqq səsini dünyaya çatdırmaq üçün yorulmaz səylər göstərdilər. Paralel olaraq iqtisadiyyatımız dirçəldildi, hərbi gücümüz artırıldı və məqamı yetişincə elliklə haqq savaşına qalxaraq, suverenliyimizi, ərazi bütövlüyümüzü bərpa etdik.

Bu gün Azərbaycan təkcə sosial-iqtisadi istiqamətdə deyil, elm və mədəniyyət təbədüllatlar səhnəsini canlandırır. Meydanlar çağlayır, izdiham kükrəyirdi. Azadlığın nəfəsini duyan millət əzəli və əbədi arzusuna qovuşmağa, həmin tarixi anı tezləşdirməyə can atırdı. Bu, həmin xalq idi ki, meydan hərəkatında bərkimiş, Qanlı Yanvar qırğınını görmüş, özünün istiqlal mübarizəsində neçə-neçə şəhid və qurbanlar vermişdi. İmperiyanın tankları da artıq azadlığa aparan, müstəqilliyə qovuşduran yolun qarşısını kəsə bilmirdi. Azərbaycan inadla, inamla istiqlalına doğru gedirdi. Həmin ilin bir payız günü siyasi rəhbərlik və parlament qızğın müzakirələrdən sonra "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitu- sonra isə Şuşa və Laçın işğala məruz qaldı. Sanki tilsimli bir əl ətəyimizdən tutub bizi geri çəkir, faciələr burulğanına sürükləyirdi. Beləcə, cəbhədə vəziyyət günbəgün gərginləşirdi. Növbəti ildə Qarabağın dağlıq hissəsi və daha bir neçə ətraf rayonumuz erməni quldurlarının əlinə keçdi. Nə onlara qarşı qətiyyətli mübarizə üçün nizami ordumuz vardı, nə də siyasi hakimiyyəti zəbt etmiş AXC–Müsavat cütlüyü bunun fərqinə varırdı. Dövlət müstəqilliyinin tamamilə məhvə sürüklənməsi təhlükəsini görən xalq öz nicatını dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin hakimiyyətə qayıdışında gördü. Ulu öndər hələ ötən əsrin 70-ci illərindən öz strategiyasına uyğun olaraq respublikamızda genişmiqyaslı proqramlar həyata keçirmiş, müasir iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın

dövlətləri, onların xalq və millət yolundakı mübarizəsi tarixdə silinməz izlər buraxıb. Təkcə Səfəvilər dövlətinin ərazisi 1 milyon 200 min kvadratkilometr olub. Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi isə cəmi-cümlətani 86,6 min kvadratkilometr idi ki, onun da beşdəbiri 30 il ərzində erməni işğalına məruz qalmışdı. Yalnız inişil müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli silahlı qüvvələrimiz 44 günlük Zəfər yürüşü ilə həmin əraziləri işğaldan azad edə bildilər. Hazırda azadlığına qovuşmuş Qarabağ və Şərqi Zəngəzurda hərtərəfli bərpa-quruculuq işləri aparılır, sərhədlərimiz möhkəmlənir və "Böyük Qayıdış" həyata keçirilməyə başlayıb.

Əziz bayram kimi qeyd etdiyimiz Müstəqilliyin Bərpası Günü sayəsində dövlətimiz dünyada tanındı. Azərbaycan bir sıra dövlətlərlə ikitərəfli, bərabərhüquqlu və diplomatik münasibətlər yaratmağa başladı, nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv oldu. Azərbaycanın səsi BMT-nin, Avropa Şurasının zirvə toplantılarından, yüksək tribunalarından gəldi. Amma şərəfli tarixin bərpası çətin sınaqlardan keçməli oldu.

sahəsində də dünyanın sürətlə inkişaf edən bir dövlətidir. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi, "Azerspase-1" adlı ilk rabitə peykimizin orbitə çıxması, təhsil şəbəkəsinin müasir tələblər səviyyəsində qurulması, səhiyyənin yenilənməsi, dünyanın super dövlətləri ilə hərtərəfli əlaqələr ölkəmizi regionun aparıcı dövlətinə çevirib. Şübhə yoxdur ki, Azərbaycan bundan sonra öz müstəqilliyini daha da möhkəmləndirəcək, işğaldan azad edilmiş torpaqları gülüstana çevirəcək.

Müstəqillik haqqında Konstitusiya Aktında bildirilir ki, bu sənəd Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" respublika Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutaraq qəbul edilir və ölkədə dövlət quruluşunun, siyasi və iqtisadi quruluşun əsasları təsis olunur.

Otuz bir il əvvəlki dövrün siyasi mənzərəsi gözlərimiz önündə ictimai siya Aktını qəbul etməli oldu. Bununla da, Azərbaycanın tarixində yeni dövrün başlanğıcı qoyuldu. Ardınca isə dekabrın 29-da ölkədə ümumxalq səsverməsi keçirildi və xalqın iradəsi özünün hüquqi qiymətini aldı.

Dünya dövlətləri istiqlalımızı tanıdılar. Bu sırada ilk olaraq Türkiyə, Ruminiya, Pakistan, İsveçrə, İran gəldi. Növbəti aylarda ABŞ, Rusiya və başqa dövlətlər də müstəqilliyimizi etiraf etdilər. Azərbaycanın BMT-yə üzvlüyü (2 mart 1992-ci il) onun beynəlxalq aləmdə de-fakto tanınmasını təsdiqlədi. 1992-ci ilin mayında Milli Məclis tərəfindən Dövlət himnimiz, az sonra üçrəngli bayrağımız, içində alov olan səkkizguşəli ulduz təsvirli dövlət gerbimiz təsdiq edildi. Bu məqamda, istiqlal şairi Əhməd Cavadın milli bayrağımızın vəsfinə yazdığı şeirdən qanadlı misralar yada düşür:

***Köksümdə tufanlar gəldim irəli,***
***Öpdüm kölgən düşən mübarək yeri!***

Doğru fikirdir ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Ölkəmizin BMT üzvlüyünə qəbulu Qarabağda Xocalı soyqırımından bir həftə sonra baş tutdu, iki ay canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə nail olmuşdu. Bütün bunlar gələcək istiqlalımız üçün etibarlı zəmin yaratmışdı.

Doxsanıncı illərin əvvəllərində isə Azərbaycanın böyük oğlu Naxçıvandakı siyasi fəaliyyəti ilə müstəqilliyə sadiqliyini layiqincə sübuta yetirmişdi. Muxtar respublikanın rəsmi adından "sovet sosialist" sözlərinin çıxarılması, parlamentdə üçrəngli bayrağımızın qaldırılması, digər dövlət rəmzlərinin bərpası kimi çox cəsarətli addımlar atılmışdı. 1993-cü ilin yayında, nəhayət, xalq öz taleyini və qurtuluşunu dahi siyasətçiyə etibar etdi. Tam inamla deyə bilərik ki, həmin çətin zamanda ölkədə vətəndaş birliyinin, həmrəyliyin, sabitliyin qorunub saxlanılması, "imzalar içində" millətimizin özünün mübarək xəttinin olması, beynəlxalq aləmdə nüfuzunun durmadan yüksəlməsi məhz unudulmaz böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Ulu öndər çıxışlarında dəfələrlə qeyd edib ki, azadlıq arzusu bizim istiqbala və istiqlala gedən yolumuzu daim məşəl kimi işıqlandırıb. Milli-azadlıq hərəkatının qanunauyğun nəticəsi olaraq, 1918-1920-ci illərdə Azərbaycan bütün müsəlman Şərqində ilk parlamentli, demokratik respublika formasında dünyəvi dövlət qurub və biz belə bir nadir irsin varisləyirik: "Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq, böyük bir tarixi keçmişi, mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".

Yeni əsrdə möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında regionun lider dövləti kimi beynəlxalq nüfuzunu və iqtisadi qüdrətini artıran ölkəmizdə iqtisadiyyatın dinamik inkişafı təmin edilib.

Hazırda Rusiya–Ukrayna qarşıdurması səbəbindən Avropa qitəsinin Azərbaycan qazına tələbatı daha da artıb. "Şimal–Cənub", "Şərq–Qərb" nəqliyyat dəhlizləri daha işıqlı sabahlarımıza yol açır. Ən böyük tarixi nailiyyətimiz isə son iki əsrdə şərəf, şöhrət timsallı bir ilkə imza atmağımız, böyük sərkərdəlik məharəti nümayiş etdirən İlham Əliyevin rəhbərliyi ilə, igidlərimizin qanı-canı bahasına ərazilərimizi almağımız, düşmən əlində olan torpaqlarımızı birdəfəlik xilas etməyimiz olub.

...Haqq pərvanəsi olan, oğlu Təbrizin Qarabağ döyüşlərində şəhidlik zirvəsinə ucalması ilə qürur duyan şair Xəlil Rza bir zaman yazmışdı: "Yalnız, yalnız öz köksümdən qüdrət, qüvvət istəyirəm, Bu dünyanı ürəyimcə qurmaq üçün səlahiyyət istəyirəm..." Hazırda Azərbaycan məhz öz köksünün qüdrəti, qüvvəti ilə o səlahiyyəti qazanıb və zirvələrə doğru qətiyyətlə irəliləyir.

Ötən il xalqımız ilk dəfə Müstəqilliyin Bərpası Gününü tam fərqli şəkildə, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi böyük təntənə ilə qeyd etdi. Dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələ olan həmin günün mahiyyəti və məzmunu daha dolğun ifadə olundu. Bu gün dövlət müstəqilliyimizin bərpasının daha çox sevincini yaşayırıq. Çünki, bu il "Şuşa İli"dir və bu fonda bayram daha möhtəşəm təsir bağışlayır. İnanırıq ki, xalqımız yeni-yeni möhtəşəm uğurlara nail olacaq, dövlətçiliyimizin inkişafı və möhkəmləndirilməsi istiqamətində daha böyük nəticələr əldə edəcək.

**Əli NƏCƏFXANLI, "Xalq qəzeti"**